# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 375-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 574; 2025, № 3, maddə 282; 2026, № 6, maddə 591; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 29 iyul tarixli 245 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.7-ci yarımbənddə “və ya digər qanuni əsaslarla haqq müqabilində” sözləri “(haqq müqabilində) və ya digər qanuni əsaslarla Qanunun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin;

1.2. 2.2-ci bəndin birinci cümləsinə “sərnişin daşımalarında” sözlərindən sonra “, habelə qeyri-müntəzəm sərnişin daşımalarında” sözləri əlavə edilsin;

1.3. 3.2-ci bəndə “avtomobilləri ilə” sözlərindən sonra “habelə qeyri-müntəzəm” sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); 2024, № 1, maddələr 81, 111, 112; 2025, № 3, maddə 282; 2026, № 6, maddə 591; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 29 iyul tarixli 245 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması

Qaydaları"nın 2.1.3-cü yarımbəndində "və ya digər qanuni əsaslarla haqq müqabilində" sözləri "(haqq müqabilində) və ya digər qanuni əsaslarla Qanunun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 355 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1436 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron əmtəə-nəqliyyat qaiməsinin forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın 2.3.7-ci yarımbəndində "və ya digər qanuni əsaslarla haqq müqabilində" sözləri "(haqq müqabilində) və ya digər qanuni əsaslarla "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq olaraq 1.0.4-cü və 1.0.5-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 11 " " sentyabr " 2026-cı il

№ 293